# BEA: COP29 Sədrliyi ilə əməkdaşlıq şəraitində Yüksək Səviyyəli Enerji Keçid Dialoqları seriyasının üçüncü mərhələsi həyata keçirilir

BEA COP29 Sədrliyi ilə əməkdaşlıq şəraitində hazırda Yüksək Səviyyəli Enerji Keçid Dialoqları seriyasının üçüncüsü mərhələsini həyata keçirir. Nyu-York şəhərində qlobal qərar qəbul edənlərlə dialoq Agentliyin hesabatının nəticələrinə və növbəti addımlara yönəldiləcək.

Bu barədə Beynəlxalq Enerji Agentliyinin (BEA) 2030-cu ilə qədər COP28 iqlim konfransı hədəflərinin tam yerinə yetirilməsinin qlobal enerji sektorunu nə dərəcədə əhəmiyyətli dərəcədə dəyişdirə biləcəyini vurğulayan yeni hesabatında bildirilib. Agentlik vurğulayıb ki, COP konfranslarının qərarları qlobal enerji sektorunu xeyli dəyişdirə bilər.

AZƏRTAC BEA-nın saytına istinadla xəbər verir ki, yeni hesabatda COP28-də 200-ə yaxın ölkənin bərpaolunan enerji imkanlarını üç dəfə və enerji səmərəliliyini iki dəfə artırmaq barədə razılığa gəldiyi diqqətə çatdırılıb. “Bu, qlobal emissiyaları 10 milyard ton və enerji səmərəliliyini artıraraq xərcləri 10 faiz azaldacaq. Bununla belə, bu hədəflər elektrik şəbəkəsinin modernləşdirilməsini və enerji ehtiyatının əhəmiyyətli dərəcədə artırılmasını tələb edir”, - deyə agentlik vurğulayıb.

BEA qeyd edir ki, bu məqsədlərə nail olmaq beynəlxalq əməkdaşlıq və müvafiq milli siyasətin həyata keçirilməsini tələb edir. Məsələn, 2030-cu ilə qədər 25 milyon kilometr elektrik şəbəkəsi qurulmalı və təkmilləşdirilməli, enerji saxlama qabiliyyəti 1500 giqavata çatdırılmalı, o cümlədən bunun 1200 giqavatı batareyalardan verilməlidir.

Hesabata görə, əlverişli iqtisadiyyat, geniş istehsal potensialı və güclü siyasət sayəsində 2030-cu ilə qədər qlobal bərpaolunan enerji potensialının üç dəfə artırılması hədəfinə çatmaq olar. BEA qeyd edir ki, bərpaolunan enerji və səmərəlilik üçün COP28 məqsədlərinə tam nail olmaq 2030-cu ilə qədər qlobal emissiyaları gözlənilənlə müqayisədə 10 milyard ton azaldacaq və dünyaya Paris Sazişinin temperatur hədəflərinə çatmaq üzrə şans verməyə kömək edəcək.

Hesabat Nyu-Yorkda İqlim Həftəsi ilə üst-üstə düşən Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası zamanı açıqlanıb. Həftə ərzində hökumət, sənaye və vətəndaş cəmiyyətinin liderləri enerji, iqlim və davamlı inkişaf məsələlərində daha geniş fəaliyyət imkanlarını müzakirə etmək üçün bir araya gəlirlər.

**AZƏRTAC**
**2024, 25 sentyabr**